# COP29-un müəyyən edilmiş Prezidenti: Azərbaycanın tikinti sektorunda uğurlu layihələr həyata keçirilib

Azərbaycanın tikinti sektorunda uğurlu layihələr həyata keçirilib. Buna misal olaraq “Ağ Şəhər” gözəl layihələrdən biridir.

AZƏRTAC xəbər verir ki, bu sözləri COP29-un müəyyən edilmiş Prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev “Azərbaycanda Yaşıl Tikinti” üzrə keçirilən dəyirmi masada söyləyib.

O bildirib ki, Bakının Baş Planı paytaxtımızın 2040-cı ilə qədər olan perspektivini əhatə edir: “Təkcə Bakı şəhəri yox, digər bölgələrimiz də bu baxımdan inkişaf edir”.

**AZƏRTAC**
**2024, 30 iyul**